**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Sosial və pedaqoji psixologiya kafedrası**

**Pedaqoji psixologiya -6104.01 ixtisası üzrə**

# PEDAQOJİ PSİXOLOGİYA

**Fənnindən**

*fəlsəfə doktoru proqramı üzrə minimum imtahanı üçün*

# P R O Q R A M

**BAKI – 2026**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Sosial və pedaqoji psixologiya kafedrası**

**Pedaqoji psixologiya -6104.01 ixtisası üzrə**

# PEDAQOJİ PSİXOLOGİYA

**Fənnindən**

*fəlsəfə doktoru proqramı üzrə minimum imtahanı üçün*

# P R O Q R A M

*Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsi Elmi Şurasının 19 mart 2026-cı il tarixli 07 saylı protokolu ilə təsdiq edilmişdir.*

**BAKI – 2026**

*Proqramı hazırlayanlar:* *Psixolologiya elmləri doktoru, professor* ***R.V.Cabbarov***

*Psixologiya üzrə fəlsəfə doktoru* ***M.N.Eyyubova***

*Elmi redaktor:* *Psixol.e.d., professor* ***K.R. Əliyeva***

***Rəyçilər:*** *Ped ü .f.d., dos.* ***Q.Q. Əzizov***
*Psixol.ü.f.d.,dos.****M.Q.Mustafayev***

## *İZAHAT VƏRƏQİ*

Müasir dövrdə praktik psixoloji biliklərdən istifadəyə tələbat təlim-tərbiyə sisitemində baş verən dəyişilmələrlə əlaqədar olub pedaqoji psixologiyanın tətbiqi sahələrinin inkişafı ilə şərtlənmişdir. Pedaqoji psixologiya - təlim və tərbiyə prosesinin nəticəsində şəxsiyyətin inkişafının və formalaşmasının psixoloji mexanizmini öyrənən elm sahəsidir. Bu elm sahəsi təlim və tərbiyə prosesinin bu və ya digər mərhələsində insan şəxsiyyətinin necə dəyişdiyini şərh edir, lazım gəldikdə inkişafın düzgün istiqamətlənməsi üçün metodlar işləyib hazırlayır. Proqram 6104.01- Pedaqoji psixologiya ixtisası üzrə fəlsəfə doktoru proqramı istiqamətində minimum imtahanının keçirilməsi üçün tərtib olunmuşdu.

İmtahanın keçirilməsinin əsas məqsədi - pedaqoji psixologiya üzrə ixtisaslaşan və psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq iddiasında olan namizədlərin ixtisası üzrə bilik və bacarıqlarının, hazırlıq səviyyələrinin müəyyən edilməsindən ibarətdir. Belə ki, bu sahədə ixtisaslaşan və tədqiqat aparan iddiaçılar pedaqoji psixologiyanın əsas anlayışlarını və kateqoriyalarını, sosial-psixoloji konsepsiyaları, təzahür və prosesləri, qanunauyğunluqları və mexanizmləri bilməli, həmçinin, tədqiqatın spesifik xüsusiyyətlərimetodları və s. kimi məsələlərlə yanaşı, peşəkar etik prinsiplər, qaydalarla bağlı zəruri məlumatlara malik olmalıdırlar.

Proqram pedaqoji psixologiya sahəsində mövcud olan yerli və xarici ədəbiyyatlara istinad edərək həm klassik, həm də müasir tədqiqatlara əsaslanır. Proqramın tərtibində Azərbaycan, rus və ingilis dillərində mövcud olan ədəbiyyat və internet resurslarından istifadə olunmuşdur.

# I BÖLMƏ. MÜASİR TƏHSİL SİSTEMLƏRİ VƏ PEDAQOJİ PSİXOLOGİYANIN BİR ELM KİMİ SƏCİYYƏSİ

## Mövzu 1. Müasir təhsil sistemləri

Müasir dünyada təhsil sistemləri. Təhsil çox aspektli fenomen kimi. Ümummilli konteksdə təhsil. Təhsil anlayışının ümummetodoloji məsələləri. Təhsil cəmiyyətin bir sistemi kimi. Müasir təhsil meylləri: fasiləsiz təhsil, təhsilin industrializasiyası, inkişafetdirici, fəallaşdırıcı, intensmifikasiya edilən təhsilə keçidin psixopedaqoji problemləri. Müştərək idrak fəallığının yaradılması məsələləri. Öyrədici fəaliyyətdən dərkedici fəaliyyət sferasına keçilməsinin pedaqoji problemləri. Yaradıcı təhsil mühitinin formalaşdırılmasının sosial-psixoloji məsələləri. Nəticəyönümlü və şəxsiyyətyönümlü təhsil. Boloniya təhsil sisteminə keçidin ümumi psixoloji və pedaqoji şərtləri. Qərb və ABŞ təhsil sistemi haqqında məlumatlar. Təhsilin fəlsəfəsi.Kurikulum.

## Mövzu 2. Pedaqoji psixologiyanın predmetinin müəyyən edilməsinin müasir problemləri

Pedaqoji psixologiyanın predmetinə müasir yanaşmalar (V.A.-Kurteçisksi, T.B.Qabay, L.İ.Bojoviç, İ.A.Zimnaya). Pedaqoji psixologiyada klassik nəzəriyyələr (B.Skinner, L.S.Vıqotski, J.Piaje, A.Vallon). İnsan haqqında elmlər sistemindən pedaqoji psixologiyanın yeri. Pedaqoji psixologiyanın strukturu: təlim psixologiyası, tərbiyə psixologiyası, müəllim psixologiyası. Pedaqoji psixologiyanın predmetinin müəyyənedilməsinin metodoloji problemləri.

## Mövzu 3.Pedaqoji psixologiyanın inkişaf tarixi

Pedaqoji psixologiyanın bir elm kimi təşəkkülü və formalaşması. Psixoloji biliklərin pedaqogikaya tətbiqinin ilkin cəhdləri. Pedaqoji psixologiyanın bir elm kimi formalaşması dövrlərində tanınmış pedaqoqların əsərlərində psixo-pedaqoji problemlər. Psixopedaqoji problemlərin XVII - XIX əsrlərdə həll olunmasına göstərilmiş cəhdlər (Y.Komenski, İ.Pestalotsi,İ.Herbat, J.Russo, A.Disterveq,P.F.Kapterev,K.D.Uşinskiy). Pedaqoji psixologiyanın formalaşmasının obyektiv şərtləri. Pedaqoji psixologiyanın XIX əsrin sonu və XX əsrin əvvəllərində inkişaf perspektivləri. Davranışın eksperimental tədqiqi (C.Uotson, E.Tolmen, K.Xall, B.Skinnner), uşaq nitqinin öyrənilməsi (J.Piaje, L.S.Vıqotski, P.P.Blonskiy,V.Ştern). Pedalogiyanın inkişaf istiqamətləri (C.Bolduin, E.Meyman, M.Y.Basov).XX əsrin ortalarında pedaqoji psixologiyanın inkişaf istiqamətləri (V.Okon, F.İbrahimbəyov Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Ə.Ə.Qədirov, M.Ə.Həmzəyev, M.Məhərrəmov,V.Makovelski, M.Mehdizadə, B.H.Əliyev, Ə.T.Baxşəliyev,M.Muhmutov, D.B.Elkonin, V.V.-Davıdov, l.V.Zankov, İ.İ.İlyasov). Azərbaycanda pedaqoji fikrin inkişaf tarixi.

## II BÖLMƏ. PEDAQOJİ PSİXOLOGİYANIN METODOLOJİ ƏSASLARI

### Mövzu 1.Pedaqoji psixologiyanın metodoloji məsələləri

Pedaqoji psixologiyada determinizm prinsipi və onun müasir dövrdə tətbiqinin problemləri. Şüur və fəaliyyətin vəhdəti prinsipi. Pedaqoji psixologiyada inkişaf prinsipi. Təlim və inkişafın psixopedaqoji problemləri. Təlim və inkişaf probleminin həllinə konseptual yanaşmalar (U. Ceyms, Z. Freyd, P.P. Blonski, J. Piaje, L.S. Vıqotskiy). İnkişafetdirici təlimin nəzəri əsasları. Təlim

prosesində inkişafın əsas istiqamətləri. İnkişafın yaxın zonası, inkişafın aktual zonası və onun göstəriciləri. Şəxsiyyətin inkişafında təlim və tərbiyənin rolu məsələləri. Pedaqoji psixologiyada sistem yanaşma.Təlm-tərbiyə prosesinin vahid sistem kimi başa düşülməsi problemləri (B.Q. Ananyev). Pedaqoji psixologiyada dialoji metodologiya (M.M. Baxtin, T.A. Florenskaya, A.U. Xaraş, A.B. Orlov). Dialoqun insanın öyrənilməsində prinsip və metod kimi üstünlükləri.

### Mövzu 2. Pedaqoji psixologiyanın metodlarının tətbiqi məsələləri

Pedaqoji psixologiyada metodların təsnifatının kriteriyaları**.** Məlumatın mənbəyinin müəyyən edilməsinin pedaqoji psixologiyanın metodlarının əsası kimi. Psixopedaqoji eksperiment, onun keçirilməsinin psixoloji və metodoloji problemləri. Öyrədici və tərbiyəedici eksperiment və onun tətbiqinin perspektivləri.Formalaşdırıcı eksperimentin prinsiplərinin və texnologiyasının yaradılmasının metodoloji əsasları. Psixopedaqoji tədqiqatın mərhələləri. Pedaqoji tədqiqatlar və psixometriya.

## IIİ BÖLMƏ. MÜASİR DÖVRDƏ ÖYRƏNMƏNİN NƏZƏRİ VƏ PRAKTİK MƏSƏLƏLƏRİ

### Mövzu 1. Təlim və öyrənmənin psixoloji məsələləri

Təlimin psixoloji məslələri. Təlimin strukturu. Təlimin funksiyaları. Öyrənmə, təlim və təqlid anlayışlarının mahiyyətinin müəyyən edilməsi. Öyrənmə nəzəriyyələri. Öyrənmənin tiplərinin təsnifatı (assosativ, intellektual) Öyrənmənin növləri (impritinq, şərti-refleks, operant öyrənmə, vikar öyrənmə, verbal öyrənmə) və

onların tədqiqinin psixopedaqoji problemləri. Öyrənmənin psixoloji nəzəriyyələri: assosativ, şərti-refleks öyrənmə, əməliyyat və işarələrlə öyrənmə. Öyrənmənin bihoverist qanunları. Öyrənmə və adaptasiya. (L.B. İtelson). Müasir təlimin məqsəd və vəzifələri. Təlimin tipləri və öyrənməyə qabillik problemi (B.Q. Ananyev, N.A. Mençinskaya, Z.İ. Kalmıkova), onun səviyyələri. Konust-ruktiv təlim texnologiyası və nanopsixopedaqoqikanın perspekt-ivləri. Öyrənmənin dərketmə modeli (B.H.Əliyev, R.V.Cabbarov).

## Mövzu 2. Təhsil texnologiyaları və inkişafetdirici təlim

İnkişafetdirici təlimin psixoloji məsələləri (D.B. Elkonin, V.V. Davıdov). Eksperimental-didaktik sistemlərdə təlimin prinsipləri (L.V. Zankova): yüksək çətinlik səviyyəsində təlimin prinsipləri; sürətli templə inkişaf; təlim prosesinin şagirdlər tərəfindən dərk olunması məsələləri, şagirdin fərdiyyətinin nəzərə alınmasının psixopedaqoji perspektivləri. Proqramlaşdırılmış təlimin nəzəri əsasları. Proqramlaşdırılmış təlimə verilən psixoloji tələblər (B. Skinner). Təlimin alqoritmləşdirilməsi onun optimallaşdırılmasının əsas problemi kimi (L.N. Landa). Alqoritm anlayışı. Problemli təlim. Problem situasiya. Problemli təlim və yaradıcılığın inkişaf etdirilməsinin psixopedaqoji problemləri (M.İ. Mahmutov). Didaktik ünsiyyətin və dialoji mədəniyyətin formalaşdırılmasının psixopedaqoji məsələləri. Müasir dərs və ona verilən tələblər.

## Mövzu 3.Təlim prosesinin təşkilinin və idrak fəaliyyətinin for-malaşmasının psixopedaqoji problemləri

Təlimin təşkili məsələləri.Mənimsəmə və onun strukturu. Biliklərin mənimsənilməsinin effektiv şərtləri.Əqli fəaliyyətin formalaşması konsepsiyası (P.Y.Qalperin). Bələdləşmə hərəkətlərinin tipləri. Müxtəlif tipli yönəlişliyin şagirdlərin inkişafedən potensialının istiqamətləndirilməsində effektivliyi.

Təlimdə fərdi yanaşmanın psixopedaqoji problemləri. Təlimin kompyuterləşdirilməsinin effektiv cəhətləri.

### Mövzu 4. Təlim fəaliyyəti və taksonomiyalar

Təlim fəaliyyəti anlayışının mahiyyəti (D.B. Elkonin, V.V. Davıdov). Təlim fəaliyyətinin səviyyələrə görə təhlili. Təlim fəaliyyətinə həsr olunmuş nəzəriyyələr və onların müasirlik baxımından təhlili. Təlim fəaliyyətinin ümumi strukturu. Təlim fəaliyyətinin motivləri və onların növləri. Təlim fəaliyətinin motivlərinin məzmun və dinamik səciyyəsi. Motivlərin təlimdə təzahür xüsusiyyətləri. Uğursuzluqdan qaçma motivi. Təlim fəaliyyətinə verilən müasir tələblər və onların həyata keçirilməsi yolları. Təlimin məzmun, əməliyyat və motivasiya aspektləri arasındakı əlaqələr. Müasir təlim taksonomiyaları (Ə.Ə. Əlizadə). Marağın formalaşdırılmasının psixopedaqoji məsələləri.

## IV BÖLMƏ. TƏRBİYƏNİN PSİXOLOJİ MƏSƏLƏLƏRİ

### Mövzu 1.Müasir dövrdə tərbiyənin nəzəri-metodoloji və praktik məsələləri

Tərbiyə prosesinə fənnlərarası yanaşma. Təlim və tərbiyənin müqayisəli təhlili. Tərbiyə psixologiyasının əsas anlayışları: təşəkkül, formalaşma, tərbiyə, sosiallaşma. Tərbiyənin məqsədi, qanunauyğunlaqları, məzmunu,prinsipləri və mexanizmi. Müasir şəraitdə şəxsiyyətin tərbiyəsinin psixoloji strategiyası (A.Q. Asmolov). Müsbət hərəkətlərə görə uşaq şəxsiyyətinin tərbiyəsi (K. Ollpredə görə).Tərbiyənin metodları. Tərbiyənin effektivliyinin psixoloji şərtləri. Milli və müasir tərbiyənin psixoloji problemləri. Kütləvi informasiya vasitələrinin uşağın

tərbiyəsinə təsiri. Aqressivlik sindromu və onun aradan qaldırılması yolları.

## Mövzu 2. Tərbiyənin sosial-psixoloji məsələləri

Şəxsiyyətin sosializasiyasının şərtləri (makroamillər, mikroamillər, mezoamillər). Tərbiyəedici şəraitin psixologiyası (L.S. Vıqotskiy). Sosializasiyanın pozulması və ya təhrif olunması. Uşaqlarda didaktogeniyanın aradan qaldırılması yolları. Çətin tərbiyə olunan uşaqlar. Asosial davranışın mərhələləri (A.İ. Nevskiy). Birbaşa və dolayısı dessosializasiya təsirləri. Tərbiyədə adət-ənənələrin və kollektivin rolu. Kollektivin şəxsiyyətə təsirinin psixoloji məsələləri. Ailədə tərbiyə. Uşaqların doğulmasının ardıcıllığının onların şəxsiyyət kimi inkişafına təsiri. Ailənin uşağın «Mən – obraz»ının formalaşmasına təsiri. Ailə tərbiyəsinin üsulları və onun uşağın tərbiyəsinə təsirinin psixopedaqoji və sosial-psixoloji təsiri.

## Mövzu 3. Müxtəlif yaş dövrlərində tərbiyənin sosial-psixoloji məsələləri

Perental və postperental dövrdə tərbiyənin sosial-psixoloji məsələləri. Çağalıq yaş dövrünün psixoloji məsələləri. Psixoloji adaptasiya sindromu. Qırx gün effekti. Qospitalizm sindromu. Erkən uşaqlıq dövründə tərbiyə (1 yaşından 3 yaşa qədər). Kiçik məktəbli və məktəbəqədər yaş döründə tərbiyənin qanunauyğunluqları (oyun və təlim vasitəsilə tərbiyə 3-6 və 6-10). Yeniyetməlik və gənclik dövründə tərbiyənin xüsusiyyətləri (həmyaşıdlar, böyüklər, kütləvi informasiya vasitələri və mədəniyyət vasitəsilə tərbiyə). Tərbiyə və özünütərbiyə. Referent tərbiyə. Tərbiyənin priyomları. Özünütərbiyənin metodları. Özünürefleksiya və özünətəlqin.

# V BÖLMƏ. PEDAQOJİ FƏALİYYƏT VƏ MÜƏLLİMİN PEŞƏKARLIĞININ ƏSASLARI

## Mövzu.1. Pedaqoji fəaliyyətin psixoloji mexanizmləri

Pedaqoji fəaliyyət haqqında anlayış. Pedaqoji fəaliyyətin psixoloji problemləri. Pedaqoji fəaliyyətin strukturu (N.V. - Kuzmina). Pedaqoji fəaliyyətin sistemogenezi. Pedaqoji təcrübə, kompotentlik və pedaqoji səriştəliliyin psixopedaqoji məsələləri. Pedaqoji fəaliyyətin funksiyaları (N.V. Kuzmina, A.İ. Şerbakov, O.N. Kulotkin, Q.S. Suxobskya). Müəllim fəaliyyətinin səmərəli təşkilinin psixopedaqoji problemləri. Pedaqoji fəaliyyətin üslublarının ümumi səciyyəsi (məzmun, dinamik, nəticəyönümlü səciyyəsi). Pedaqoji fəaliyyətin fərdi üslublarının peşə seçməyə təsiri. Pedaqoji yönümün məzmun cəhətləri. Pedaqoji fəaliyyətə yararlığın psixodiaqnostik problemləri.

## Mövzu.2. Pedaqoji ünsiyyətin sosial-psixoloji və psixopedaqoji problemləri

Pedaqoji ünsiyyətin öyrənilməsində müxtəlif yanaşmalar. Pedaqoji qarşılıqlı təsirin humanistləşdirilməsi yolları. Pedaqoji ünsiyyətin strukturu və funksiyaları. Pedaqoji ünsiyyətdə monoloji və dialoji üslubların müqayisəli təhlili. Peşəkar ünsiyyətin təməl bacarıqları. Sosial persepsiya və sosial stereotip. Şagirdlərin müəllimlər tərəfindən adekvat qiymətləndirilməməsinin psixoloji məsələləri (K. Rocers). Pedaqoji ünsiyyətdə refleksiyanın və empatiyanın rolu. Pedaqoji ünsiyyətdə şəxsiyyətlərarası münasibətlər. Dərsdə pedaqoji ünsiyyətin optimallaşdırılması yolları.

## Mövzu 3. Müəllim şəxsiyyətinin və pedaqoji fəaliyyətin psixoloji məsələləri

Pedaqoji peşəkarlğın strukturu və mahiyyəti. Müəllimin peşə keyfiyyətləri və onun şagird şəxsiyyətinin inkişafında rolu. Müəllim fəaliyyətinin psixofizioloji xüsusiyyətləri. Ümumi və xüsusi pedaqoji qabiliyyətlərin, bacarıqların nisbəti. Ümumi pedaqoji qabiliyyətlərin strukturu (V.A. Krutetski, N.A. Kuzmina, N.A. Aminov). Pedaqoji qabiliyyətlərin inkişaf dinamikası. Müəllimin özünüdərketməsinin psixoloji məsələləri. Müəllimin peşəkar «Mən-konsepsiyasında» özünüqiymətləndirmənin rolu (A.A. Rean). Müəllim şəxsiyyətinin istiqamətliliyi. Pedaqoji istiqamətliliyin strukturu. Pedaqoji fəaliyyətdə inkişafa və nəticəyə yönəlişliyin psixopedaqoji məsələləri (L. Festinqer, D. Rayns). Müəllimin fəaliyyətinin motivasiya kompleksinin optimallıq dərəcəsinin psixoloji məsələləri. Pedaqoqun şəxsiyyətinin deformasiyası. Müəllimin şəxsiyyətdaxili ziddiyyətləri (L.M. Mitina).

## Mövzu 4. Müəllim fəaliyyətinin psixoloji təminatı məsələləri

Pedaqoji fəaliyyətdə müəllim fəaliyyətinin effektivliyinin təmin edilməsinin psixoloji məsələləri. Psixoloq və pedaqoqun qarşılıqlı təsirinin modelləri. Psixoanaltik yanaşma. Pedaqoqların psixoanalitik tipologiyası. Pedaqoqun psixoterapevtik mövqeyi. Pedaqoji fəaliyyətə bihoverial yanaşma. Müəllimin emosional problemlərinin həllinə genetik yanaşma. «Müəllimin peşəkar yanma» sindromu və onun səbəbləri. Müəllimə və pedaqoji fəaliyyətə humanistik yanaşma. Müəllim modelləri. Müəllim fasilitator kimi (K. Rocers).

## Mövzu 5. Məktəbdə psixoloji xidmətin təşkilinin psixopedaqoji məsələləri

Məktəbdə psixoloji xidmətin təşkili məsələləri. Məktəbdə psixoloqun fəaliyyətinin psixoloji məsələləri. Psixoloqun şagirdlərlə apardığı işin metodoloji əsasları. Peşə fəaliyyətinin

formalaşmasında psixoloqun müəllimlə apardığı fərdi işin psixoloji məsələləri. Müəllimin peşəkar deformasiyasının aradan qaldırılmasında məktəb psixoloqunun rolu. Karyer məsləhət metodunun rolu. Müəllimin şəxsiyyət kimi formalaşması və özünügerçəkləşdirməsi proqramının psixoloji problemləri. Müəllimə onun fəaliyyəti və şəxsiyyəti haqqında obyektiv informasiyanın verilməsinin effekti. Pedaqoji fəaliyyətin psixoloji təhlili. Mühazirədə, seminarlarda, dərslərin təhlilində, sosial-psixoloji treninqlərdə, rollu və işgüzar oyunlarda təhsil subyektlərində psixoloji hazırlığın yaradılmasının psixopedaqoji problemləri. Qrup ilə işin xüsusiyyətləri (bələdləşmə və asılılıq fazası, münaqişə fazası, əməkdaşlıq fazası və məqsədəmüvafiq fəaliyyət). Müəllim və şagirdlərlə fəal təlim metodlarının keçirilməsinin psixoloji problemləri. Təşkilati və refleksiv treninq.

## Ədəbiyyat:


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya..Bakı: 2003, 566 s.
2. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi..Bakı : Təhsil, 2008, 134 s.
3. Əliyev B.H., K.R.Əliyeva, R.V. Cabbarov. Pedaqoji psixologiya. Bakı: 2011,256 s.
4. Əlizadə Ə.Ə., Əlizadə H.Ə.Pedaqoji psixologiya.! kitab.Bakı: 2010,320 s.
5. Əlizadə Ə.Ə., Əlizadə H.Ə.Pedaqoji psixologiya.il kitab.Bakı: 2010, 288 s.
6. Qasımova L.,Mahmudova R.Pedaqogika.Bakı: Çaşıqoğlu, 2012, 548 s.
7. Qədirov Ə.Ə. Yaş psixologiyası.Bakı: Maarif, 2002, 386 s.

8. Qədirova R.H., Məmmədli İ.M. Ünsiyyət psixologiyası. Bakı: Təhsil, 2016,152 s.
9. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı: 1991,320 s.
10. Выготский Л.С. Педагогическая психология. М.: 1996.
11. Габай Т.В. Педагогическая психология. М., 2001,320 с.
12. Бадмаев Ь.Ц.Психология и методика ускоренного обучения.М.: ВЛАДОС, 1998,272 с.
13. Джораев Р. Педагогическая психология. М.: Директ-Медиа, 2016,84 с.
14. Ительсон Л.Б. Лекции по современным проблемам психологии обучения. Владимир,
15. 1972, 264 с.
16. Зимняя И. А. Педагогическая психология. Учебник для вузов. М,: Логос, 2000, 384 с.
17. Каптерев П.Ф. Детская и педагогическая психология. М.; Воронеж, 1999, 250 с.
18. Лишин О. В. Педагогическая психология воспитания..МпИнститут практической психологии, 1997, 104 с.
19. Минияров В. М. Психология семейного воспитания (диагностико-коррекционный аспект). М.: Московский психолого-социальный институт; Воронеж: НПО МОДЭК, 2000, 256 с.
20. Нестерова О.В. Педагогическая психология в схемах, таблицах и опорных конспектах.М.: Айрис-пресс,2008,112 с.

21. Педагогическая психология: Учеб, для студ. высш учеб заведений / Под ред. Н.В. Клюевой. М.: ВЛАДОС-ПРЕСС, 2003 400 с.
22. Педагогическая психология: учебник для вузов. Коллектив Авторов. М.: 2013, 470 с.
23. Рогов Е.И.Учитель как объект психологического исследования: Пособие для школьных психологов по работе с учителем и педагогическим коллективом.М.: ВЛАДОС, 1998,496 с.
24. Реан А. А., Бордовская Н. В., РозукгС. И.Психология и педагогика. СПб,: Питер, 2002,
432 с.
25. Столяренко Л.Д.С . Педагогическая психология. Серия Учебники и учебные пособия. 2-е изд..Ростов н/Д: Феникс, 2003, 544 с
26. Талызина Н.Ф Педагогическая психология: М.: Академия, 1998, 288 с.
27. Фоминова А.Н., Шабанова Т.Л. Педагогическая психология: М : 2013, 333 с.

# PEDAQOJİ PSİXOLOGİYA İLƏ BAĞLI İNTERNET RESURSLAR VƏ LİNKLƏR


1. Apps, J. W. (1973). Toward a working philosophy of adult education. Syracuse, NY: Syracuse University.
2. Berliner, D.C. (1993). The 100-Year journey of educational psychology: from interest, to disdain, to respect for practice. In T. K. Fagan & G. R. VandenBos (Eds.), *Master lectures in psychology. Exploring applied psychology: Origins and critical analyses* (p. 37–78).
3. American Psychological Association. https://doi.org/10.1037/11104-002
4. Borich, G. (1993). Clearly outstanding: making each day count in your classroom. Boston: Allyn & Bacon.
5. Borich, G. D. & Tombari, M. L. (1997). Educational Psychology (2ed.). New York: Pearson. Retrieved from http://ows.edb.utexas.edu/site/dr-gary-d-borich/educational-psychology-contemporary-approach#0 Cadenas, H. G. (1999). Revitalize your teaching—four key elements for success. *Contemporary Education*, 70 (2), 5-7. Retrieved on January 28, 2008, from Wilsonweb.com website: http://vnweb.hwwilsonweb.com.proxy.lib.odu.edu/hww/jumpstart.jhtml?recid=0bc05f7a67b1790e1e9c442f93fe94fd3dd814f5b54d3854a715b6e9cc14f3538d830ddf5e8d15a6&fmt=H
6. Dewey J. (1910). How we think. New York D.C. Heath & Co.
7. Fulkerson, R. (2000). Four philosophies of composition. In E. Corbett, N. Myers and G. Tate (Eds.), *The writing teacher's sourcebook* (4th ed.) (pp. 3–8). New York: Oxford University Press.

8. Fuller, F.F. (1969). Concerns of teachers: A developmental conceptualization. American Educational Research Journal, 6, 207–226.
9. Ganly, S. (2007). Educational philosophies in the classroom: the categories of various teaching philosophies. Retrieved February 17, 2009, from https://archive.is/20130628165859/www.associatedcontent.com/article/352631/educational_philosophies_in_the_classroom_pg2.html?cat=4 James, W. (1983). *Talks to teachers on psychology and to students on some of life's ideals*. Cambridge, MA: Harvard University Press. (Original work published 1899)
10. Hergenhahn, B.R. (2009). An introduction to the history of psychology. Belmont, CA: Wadsworth.
11. Marchant, V. (2000, May 29). Why not teach next? *Time*. Retrieved on January 28, 2008, from Time.com website: http://www.time.com/time/magazine/article/0,9171,997031-1,00.html
12. Merriam-Webster Dictionary. (2020). Art. Retrieved May 10, 2020 from https://www.merriam-webster.com/dictionary/art
13. National Board for Professional Teaching Standards. (2016). What teachers should know and be able to do. Retrieved from http://accomplishedteacher.org/wp-content/uploads/2016/12/NBPTS-What-Teachers-Should-Know-and-Be-Able-to-Do-.pdf
14. Ornstein, A. & Levine, D. (2003). *Foundations of education* (8th ed.). Boston: Houghton Mifflin Company.
15. Roberson, T. (2000 September 29). Philosophy of philosophy: making the connection between philosophy and pedagogy for preservice teachers

(Paper presented at Meeting for the Society for Philosophy and History of Education, Biloxi, MS 2000).

**16.** Shulman, L.S. (1991). Classroom casebooks. Educational Leadership, 49 (3), 28–31.

**17.** Snowman, Jack (1997). Educational Psychology: What Do We Teach, What Should We Teach?. "Educational Psychology", 9, 151-169.

**18.** The nature of teaching (n.d.). Pearson. Retrieved from https://www.pearsonhighered.com/assets/samplechapter/0/1/3/2/0132565498.pdf

**19.** Thorndike, E.L. (1912). *Education: A first book*. New York: MacMillan.